# Azərbaycan-CAR münasibətləri

İki ölkə arasında diplomatik əlaqələr **29 aprel 1992**-ci ildə qurulmuşdur.

**1999–cu** ildə CAR-ın Azərbaycan Respublikasındakı səfiri (iqamətgahı Ankarada yerləşir) Tomas Viler Bakıya səfər etmişdir. Səfər zamanı səfir Azərbaycan Respublikası Milli Məclisinin sədri M.Ələsgərov, baş nazir A.Rasi-zadə, xarici işlər naziri T.Zülfüqarov və digər rəsmi şəxslər ilə görüşlər keçirmişdir.

**1999-cu ilin 3 may** tarixində Cənubi Afrika Respublikasının xarici işlər naziri A.Nzo Azərbaycana yolüstü səfər etmişdir.

**1999-cu ilin 12 may** tarixində CAR-ın prezidenti andiçmə mərasimində iştirak etmək üçün Azərbaycan Respublikasının prezidenti cənab Heydər Əliyevə dəvət məktubu göndərmişdir.

**1999–cu ilin 22 oktyabr** tarixində CAR xarici işlər nazirinin müavini A.Pahad tərəfindən Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini X.Xələfova CAR-a səfər etmək üçün dəvət məktub göndərilmişdir.

**1999-cu ilin 29-30 avqust** tarixlərində CAR XİN-in Avropa İdarəsinin rəisi cənab Q.Qroblerin başçılığı ilə nümayəndə heyəti Bakıda səfərdə olmuşdur. Nümayəndə heyəti Azərbaycan Respublikasının baş naziri A.Rasi-zadə, xarici işlər nazirinin müavini X.Xələfov, ARDNŞ-in Prezidenti N.Əliyev, ticarət naziri F.Əliyevlə görüşlər keçirmişdir.

**2001-ci ilin 4-6 aprel** tarixlərində CAR-ın Azərbaycan Respublikasındakı səfiri (iqamətgahı Ankarada yerləşir) Tomas Viler Bakıya vida səfəri etmişdir.

**2004-cü ildə** Cənubi Afrika Respublikasının Azərbaycan Respublikasında akkreditə olunmuş (iqamətgahı Ankara şəhərində yerləşir) səfiri Sobizana Mnqikana etimadnamə vərəqlərini AR-in Prezidenti cənab İlham Əliyevə təqdim etmişdir.

**2005-ci ilin 4-7 oktyabr** tarixlərində Cənubi Afrika Respublikasının Azərbaycan Respublikasında akkreditə edilmiş (iqamətgahı Ankara şəhərində) Fövqəladə və Səlahiyyətli səfiri Sobizana Mngqikana Bakıya işgüzar səfər etmişdir. Səfər zamanı Azərbaycan tərəfindən xarici işlər naziri E.Məmmədyarov və iqtisadi inkişaf nazirinin müavini M.Cabbarovla görüşlər keçirilmişdir.

**2007-ci ilin 23-26 sentyabr tarixlərində** CAR-ın "Paramount Logistics Corporation" şirkətinin nümayəndə heyəti Azərbaycanda rəsmi səfərdə olmuşdur.

**2007-ci ilin 22-23 oktyabr tarixlərində** CAR-ın Türkiyədə və eyni zamanda Azərbaycanda akkreditə olunmuş səfiri Sobizana Mnqikananın fəaliyyət müddətinin başa çatması ilə əlaqədar Azərbaycana səfər etmişdir.

**2008-ci ilin 10-11 iyun tarixlərində** Bakıda keçirilən "Mədəniyyətlərarası Dialoqda Qadınların Rolunun Genişləndirilməsi" adlı Beynəlxalq Forumda CAR-ın birinci xanımı Zanele Mbekinin başçılığı ilə nümayəndə heyəti iştirak etmişdir.

**2009-cu ilin fevral ayının 6-da** Cənubi Afrika Respublikasının Türkiyə Respublikasındakı və eyni zamanda Azərbaycan Respublikasında akkreditə olunmuş yeni səfiri Teboqo Sekolo etimadnamələrini Azərbaycan Respublikasının Prezidentinə təqdim etmişdir.

**2011-ci ilin 16 avqust** tarixində Azərbaycan Respublikasının Prezidentinin **1689** saylı sərəncamı ilə **Elxan Polux oğlu Poluxov** Cənubi Afrika Respublikasına fövqəladə və səlahiyyətli səfiri təyin edilmişdir.

**2012-ci il 1 fevral** tarixində Azərbaycan Respublikasının Cənubi Afrika Respublikasındakı səfiri Elxan Poluxovun etimadnaməsini Cənubi Afrika Respublikasının Prezidenti Cakob Zumaya təqdim etmişdir.

**2012-ci il 14-16 oktyabr tarixlərində** CAR-ın Müdafiə nazirinin müavini cənab T.Makveltanın başçılıq etdiyi nümayəndə heyəti Azərbaycana işgüzar səfər etmişdir.

**2012-ci ilin 9 noyabr tarixində** CAR-ın Azərbaycan Respublikasındakı yeni səfiri (iqamətgahı Ankarada olmaqla) Vika Mazvi Khumalonun etimadnamələrini Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə təqdim etmişdir

**2013-cü ilin 7-8 may tarixlərində** CAR-ın Beynəlxalq Əlaqələr və Əməkdaşlıq nazirinin müavini Marius Lievelin Fransman Azərbaycana rəsmi səfər etmişdir.

**2013-cü ilin 31 oktyabr - 1 noyabr tarixlərində** keçirilmiş III Bakı Beynəlxalq Humanitar Forumunda Cənubi Afrika Respublikası Parlamentinin İncəsənət, Mədəniyyət və İrs komissiyasının sədri xanım Tandili Sunduza və CAR-ın Azərbaycan Respublikasındakı sabiq səfiri (1999-2001), "Azərbaycanın Cənubi Afrikadakı Dostları" qeyri-hökumət təşkilatının təsisçilərindən biri, Cənubi Afrikanın Beynəlxalq Münasibtələr İnstitutunun tədqiqatçısı, professor Tomas Viler iştirak etmişlər.

**2014-cü ilin 20-27 fevral tarixlərində** AR xarici işlər naziri Elmar Məmmədyarov CAR, Mozambik və Botsvanada səfərdə olmuşdur. Cənubi Afrika Respublikasına ilk rəsmi səfəri çərçivəsində nazir Elmar Məmmədyarov CAR-ın Beynəlxalq Əlaqələr və Əməkdaşlıq Departamentinin naziri (xarici işlər naziri) Nkoana Maşabane ilə görüş keçirmişdir. Görüş əsnasında nazir Elmar Məmmədyarov və xanım Nkoana Maşabane tərəfindən "Azərbaycan Respublikasının Hökuməti və Cənubi Afrika Respublikasının Hökuməti arasında müntəzəm diplomatik məsləhətləşmələr haqqında Anlaşma Memorandumu" imzalanmışdır. Cənubi Afrika Respublikasına səfəri çərçivəsində nazir Elmar Məmmədyarov həmçinin CAR-ın enerji naziri Dikobe Ben Martins ilə görüş keçirmişdir.

**13 may 2014-cü il tarixində** AR-in xarici işlər nazirinin müavini Xələf Xələfov Cənubi Afrika Respublikasının Azərbaycan Respublikasındakı səfiri cənab Vika Khumalonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**2014-cü ilin 23 iyul - 1 avqust tarixlərində** Heydər Əliyev Fondunun təşkilatçılığı ilə keçirilən VI Qəbələ Beynəlxalq Musiqi Festivalı çərçivəsində CAR-ın Yohannesburq Filarmonik Orkestri konsert proqramı ilə çıxış etmişdir.

**2014-cü ilin 3-9 avqust tarixlərində** Azərbaycan Memarlar İttifaqından nümayəndə heyəti CAR-ın Durban şəhərində "Architecture otherwhere" – "Müxtəlif yerlərdə Memarlıq" mövzusunda keçirilən Beynəlxalq Memarlar İttifaqının XXV Beynəlxalq Konqresində iştirak etmişdir.

**2-3 oktyabr 2014-cü il** tarixlərində keçirilmiş IV Bakı Beynəlxalq Humanitar Forumunda Cənubi Afrika Respublikasının Venda xalqının kralı (King of Vha Venda Community) Toni Peter Mphephu iştirak etmişdir.

**14 fevral 2015-ci ildə** Səfir Elxan Poluxov BƏƏD-in Naziri xanım Maite Nkoana Maşabane (Maite Nkoana Mashabane) Diplomatik Korpus və CAR-ın iş adamları üçün təşkil etdiyi şam yeməyində iştirak etmişdir.

**21 may 2015-ci ildə** səfir Elxan Poluxov CAR-ın Keyp Taun şəhərində ölkə parlamentində keçirilən Beynəlxalq Əlaqələr və Əməkdaşlıq Departamentinin 2015-2016-cı il üçün büdcəsinin müzakirəsində iştirak etmişdir.

**12 oktyabr 2015-ci ildə** Cənubi Afrikanın Cohannesburq şəhərində fəaliyyət göstərən 101.9 CHAİ FM (yəhudi icmasına məxsus) radio kanalının dəvəti ilə Səfir Elxan Poluxov radionun birbaşa efirində çıxış etmiş, ölkəmiz haqda ətraflı məlumat vermişdir.

**6 dekabr 2015 ildə** Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Azərbaycan Respublikasının Cənubi Afrika Respublikasındakı Səfirliyi tərəfindən birgə həyata keçirilmiş CAR jurnalistlərinin cari ilin 5-10 oktyabr tarixlərində Azərbaycana səfərinin nəticəsi olaraq Marian Şvankart (Marianne Schwankhart) tərəfindən CAR-ın "Sunday Times" qəzetinin "Trawel Weekly" bölməsində "Azərbaycan: köhnə İpək yolunda nadir dayanacaq" (Azerbaijan: a rare stop on the old Silk Road) başlıqlı məqalə dərc edilmişdir.

**15 mart 2016-cı il** tarixində CAR-ın İctimai Xidmətlər və İdarəetmə Departamentinin nazir müavini, CAR Prezidentinin AHT üzrə xüsusi nümayəndəsi xanım Ayanda Dlodlo Azərbaycana səfər etmiş və səfər çərçivəsində xarici işlər nazirinin müavini Mahmud Məmməd-Quliyevlə görüşmüşdür.

**5-6 may 2016-cı** ildə CAR-ın Keyp Taun şəhərində Açıq Hökumət Əməkdaşlığı Təşkilatının (AHT) "Afrikada Davamlı İnkişaf naminə Açıq Hökumət" başlıqlı Afrika Regional Konfransı keçirilmiş və sözügedən tədbirdə CAR-ın İctimai Xidmətlər və İdarəetmə Departamentinin nazir müavini xanım Ayanda Dlodlonun dəvəti əsasında səfir Elxan Poluxov iştirak etmişdir.

**6 iyun 2016-cı** ildə Cənubi Afrika Respublikasının Beynəlxalq Əlaqələr və Əməkdaşlıq Departamentinin Amerika və Avropa üzrə Baş direktorun müavini xanım Judit Yolisa Mayanın rəhbərlik etdiyi nümayəndə heyəti Bakıya səfər etmişdir. Səfər zamanı nümayəndə heyəti "ASAN xidmət"-də, Xarici İşlər Nazirliyində və ADA-da Universitetində görüşlər keçirmişlər.

**28 – 29 noyabr 2016-cı il** Cənubi Afrika Respublikasının Beynəlxalq Əlaqələr və Əməkdaşlıq naziri xanım Maite Nkoana-Maşabanenin rəhbərlik etdiyi nümayəndə

heyəti Azərbaycan Respublikasına səfər etmişdir. Səfər zamanı nümayəndə heyəti AR Prezidenti cənab İlham Əliyevlə, AR İqtisadiyyat naziri cənab Şahin Mustafayevlə, AR Xarici İşlər naziri cənab Elmar Məmmədyarovla, Azərbaycan Diplomatik Akademiyasının rektoru Hafiz Paşayevlə və ASAN xidmətin sədri cənab İnam Kərimovla görüşlər keçirilmişdir.

**5 dekabr 2016-cı il tarixində** Azərbaycan Respublikasının Xarici İşlər Nazirinin əmri ilə Azad İsmayıl oğlu Nağıyev Cənubi Afrika Respublikasına müvəqqəti işlər vəkili vəzifəsinə təyin edilmişdir.

**2017-ci ilin 9-10 fevral** tarixlərində Müvəqqəti işlər vəkili A.Nağıyev Cənubi Afrika Respublikasının Parlamentinin açılış iclasında iştirakı üçün Keyptaun şəhərinə səfər etdi və ölkə Prezidenti C.Zumanın Parlamentdəki edilən xalqa çıxış-müraciətini dinləmişdir.

**2017-ci ilin mart ayının 10-12 tarixlərində** Müvəqqəti işlər vəkili A.Nağıyev Kva Zulu-Natal vilayətinin Riçard Bey şəhərində işçi səfərdə olmuşdur. Səfər vaxtı Cənubi Afrika Respublikasının Beynəlxalq Əlaqələr və Əməkdaşlıq naziri Maite Nkoana-Maşabane və Kva Zulu-Natal vilayətinin rəhbərliyi ilə ikitərəfli əməkdaşlığımızın gələcəyi barədə fikir mübadiləsi aparılmışdır.

**2017-ci ilin ilin aprel ayının 26-da** Azərbaycan Respublikası ilə Cənubi Afrika Respublikası arasında diplomatik əlaqələrin qurulmasının 25 illiyinin qeydi ilə əlaqədar UBUNTU radiosuna verilən müsahibədə Müvəqqəti işlər vəkili A.Nağıyev Azərbaycanın regional əməkdaşlığında rolu, ölkəmizdə multi-etnik, multi-kultural və tolerant cəmiyyətin olduğu, Ermənistan-Azərbaycan münaqişəsinin həqiqətləri haqqında və onun həllinin müxtəlif aspektləri barədə geniş məlumat verilmişdir.

**2017-ci ilin ilin aprel ayının 27-də** CAR-ın Azadlıq Günü münasibətilə Azərbaycan Respublikasının prezidenti cənab İ. Əliyevə prezident C.Zumaya təbrik məktubu göndərmişdir.

**2017-ci ili 4-7 may tarixlərində** Bakıda keçirilən 4-cü Ümumdünya Mədəniyyətlər arası Dialoq Forumunda iştiraki məqsədilə CAR-ın İncəsənət və Mədəniyyət Departamentinin nümayəndə heyəti Azərbaycana səfər etmişdir.

**24 may 2017-ci ildə** Müvəqqəti işlər vəkili A.Nağıyev CAR-ın Keyp Taun şəhərində ölkə parlamentində keçirilən Beynəlxalq Əlaqələr və Əməkdaşlıq Departamentinin 2017-2018-cı il üçün büdcəsinin müzakirəsində iştirak etmişdir. Cənubi Afrika Respublikasının Beynəlxalq Əlaqələr və Əməkdaşlıq nazir müavini Luvellin Landersın çıxışında Azərbaycan CAR-ın Avropadakı qeyri-Aİ tərəfdaşı kimi xarakterizə edilmiş və CAR-ın qarşıdakı beynəlxalq əməkdaşlıq planlarında vacib yer tutduğunu bildirilmişdir.

**25 may 2017-cı il tarixində** 28 May Respublika Günü münasibətilə CAR-dakı Səfirliyimiz tərəfindən ziyafət təşkil edilmişdir. Tədbirə CAR-ın dövlət strukturlarının rəsmiləri, CAR-da akkreditə olunmuş diplomatik korpusun nümayəndələri, Azərbaycan icmasının üzvləri, CAR-da təsis edilmiş “Azərbaycanın Dostları” yerli QHT-nin üzvləri, KİV-lər və iş adamları qatılmışdır. CAR tərəfindən fəxri qonaq qismində İncəsənət və Mədəniyyət Departamentinin Baş Direktorun müavini xanım

Luis Qraham Respublika Günü münasibətilə CAR hökumətinin səmimi təbriklərini çatdırmış, ikitərəfli münasibətlərin inkişafı üçün mövcud potensialın həyata keçirilməsində CAR hökumətinin yaxından əməkdaşlıq etməyə hazır olduğunu bildirmişdir.

**27 may 2017-ci il tarixində** Cənubi Afrika Respublikasının Beynəlxalq Əlaqələr və Əməkdaşlıq naziri Maite Nkoana-Maşabane Azərbaycan və CAR arasında diplomatik əlaqələrin qurulmasının 25-ci ildönümü ilə əlaqədar AR-nın Xarici İşlər naziri E.Məmmədyarova təbrik məktubunu göndərmişdir.

**2017-ci ilin 19 iyun** tarixində Səfirlik tərəfindən iftar məclisi təşkil edilmişdir. Məclisdə CAR dövlət qurumlarının vəzifəli şəxsləri iştirak etmişlər.

**19 iyun 2017-ci il tarixində** Müvəqqəti işlər vəkili A.Nağıyev CAR-ın Olimpiya Komitəsinin sədri cənab Sam Ramsami ilə görüş keçirilmişdir. Görüşdə Azərbaycan-CAR Olimpiya Komitələri arasında əməkdaşlıq məsələləri müzakirə edildi.

**20 avqust 2017-ci il** tarixində Müvəqqəti işlər vəkili A.Nağıyev Cənubi Afrikanın Tütünçülük İnstitutunun (TİSA) direktoru cənab Frank van der Merve ilə görüşmüş, Azərbaycanın Tütünçülüyün inkişafı Dövlət Proqramı barədə ətraflı məlumat vermiş və bu proqramın icrası məqsədilə iki ölkə arasında əməkdaşlığın yaradılmasını təklif etmişdir.

**10 sentyabr 2017-ci ildə** AR-nın Xarici İşlər Naziri E.Məmmədyarov Azərbaycan və CAR arasında diplomatik əlaqələrin qurulmasının 25-ci ildönümü ilə əlaqədar Cənubi Afrika Respublikasının Beynəlxalq Əlaqələr və Əməkdaşlıq naziri Maite Nkoana-Maşabaneyə təbrik məktubu göndərmişdir.

**08 mart 2018-ci ildə** AR-nın Xarici İşlər Naziri E.Məmmədyarov Cənubi Afrika Respublikasının Beynəlxalq Əlaqələr və Əməkdaşlıq naziri vəzifəsinə təyin edilməsi ilə əlaqədar xanım Lindive Nonseba Sisuluyə təbrik məktubu göndərmişdir.

**2018-ci ilin 05-06 aprel** tarixlərində nazir müavini Luvellin Landersın başçılığı altında CAR-ın Beynəlxalq Əlaqələr və Əməkdaşlıqın nümayəndə heyəti Bakıda keçirilmiş Qoşulmama Hərəkətinin orta müddətli nazirlər konfransında iştirak etdi.

**2018-ci ilin ilin aprel ayının 24-də** CAR-ın Azadlıq Günü münasibətilə Azərbaycan Respublikasının Prezidenti cənab İ.Əliyev prezident S.Ramafozaya təbrik məktubu göndərmişdir.

**9-13 sentyabr 2018-ci ildə** Beynəlxalq Prokurorlar Assosiasiyasının 23-cü İllik Konfransı və Baş Assambleyası Cənubi Afrikanın Cohannesburq şəhərində keçirilmişdir.Tədbirdə Azərbaycan Baş Prokurorunun müavini, Korrupsiyaya Qarşı Mübarizə İdarəsinin rəisi və Assosiasiyanın İcra Şurasının üzvü Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti iştirak etmişdir.

BPA-nın fəaliyyətinə verdiyi töhfəsinə görə və 2018-ci ilin aprel ayında Bakıda keçirilən BPA-nın İcraiyyə Komitəsinin 45-ci iclasının uğurlu təşkil edilməsi üçün Azərbaycan Respublikası Prokurorluğuna Fəxri Diplom verilmişdir. BPA-nın Ümumi

yığıncağında c-b Kamran Əliyevi assosiasiyanın vitse-prezidenti vəzifəsinə seçilmişdir.

**10-13 sentyabr 2018-ci il** tarixlərində Beynəlxalq Telekommunikasiya İttifaqının (Telecom World 2018) beynəlxalq sərgi-konfransı Cənubi Afrikanın Durban şəhərində keçirilmişdir. Tədbirdə nazir müavini Elmir Vəlizadə rəhbərlik etdiyi Azərbaycan Respublikası Nəqliyyat Nazirliyi, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin nümayəndə heyəti iştirak etmişdir. Sərgidə Azərbaycan milli pavilyonu təmsil olunmuşdur. Milli pavilyonumuzda Rabitə və Yüksək Texnologiyalar sahəsindəki ölkəmizin nailiyyətləri və innovasiya xidmətləri nümayiş etdirildi.

**4-6 oktyabr 2018-ci il** tarixlərində Bakı Beynəlxalq Humanitar Forumunun çərçivəsində ölkəmizdə ilk dəfə keçirilən ölkəmizdə təhsil almış əcnəbi məzunlarının toplasında 1986-1991 illərdə Bakı Ali Hərbi Dənizçilik Məktəbində təhsil almış CAR-ın hərbi dəniz donanmasının baş komandanı, Vitse-Admiral M.S.Hlonqvane iştirak etdi.

## Azərbaycan ilə CAR arasında ticarət əlaqələri

***Ticarət dövriyyəsi, ixrac və idxalın həcmi (milyon ABŞ dollar)***

| İl | Ticarət dövriyyəsi | İxrac | İdxal |
|---|---|---|---|
| **2010** | 17,51 | 0,01 | 17,5 |
| **2011** | 1 | 0 | 1 |
| **2012** | 2,6 | 0 | 2,6 |
| **2013** | 74,82 | 0,02 | 74,8 |
| **2014** | 1,8 | 0,1 | 1,7 |
| **2015** | 30,36 | 4,7 | 30,31 |
| **2016** | 6,52 | 0,28 | 6,24 |
| **2017** | 7,164 | 0,001 | 7,163 |
| **2018 (yan-sent)** | 162,17 | 0,009 | 162,161 |

**Mənbə:** AR Dövlət Statistika Komitəsi (www.stat.gov.az)

*Azərbaycan Respublikasından Cənubi Afrika Respublikasına ixrac edilən əsas məhsullar* yanacaq və sürtkü materialları, elektrik transformatorların hissələri, maye və qazları ölçən cihaz və aparatların digər hissələri və s.;

*Azərbaycan Respublikasına Cənubi Afrika Respublikasından idxal edilən əsas məhsullar:* sitrus və tropik meyvələri, balıq, xrom filizləri, qara metallardan digər metal konstruksiyalar və s.